## On bir ayın sultanı

# Müqəddəs Ramazan ayı



İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Orucluğun tarixi Hicri təqviminin ikinci ilindən (Miladi tarixin 622-ci ilində) başlanır. O vaxt Məhəmməd Peyğəmbər Mədinədə müsəlmanlar üçün Ramazan ayını müəyyən etmişdir. Onu məcazi şəkildə “on bir ayın sultanı” da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani-Kərim nazil olmuşdur. Deyilənə görə, bu hadisə həmin ayın 23-dən 24-nə və ya 26-dan 27-nə keçən gecə baş vermişdir. Həmin gecəyə “qədr” və ya “ehya” gecəsi deyilir. Ramazan ayı insanlara Allahın göstərişlərini bütün qəlbi ilə qəbul etməyi, cismani və ruhi sınaqlardan keçməyi təlqin edir.

Oruc islamın beş şərtindən biridir. Hədisdə bu şərtlər belə sıralanmışdır. “İslam beş təməl üzərində qurulmuşdur. Allahdan başqa bir ilah olmadığına və Məhəmmədin onun qulu və elçisi olduğuna şəhadət gətirmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və imkan çatanların Həcc ziyarəti etmələridir.

Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için; sonra gecəyə qədər orucunuzu tamamlayın”.

Orucluq hələ islamdan əvvəldə mövcud olmuşdur. Bu barədə Quranda deyilir: “Sizdən əvvəlkilərə fərz qılındığı kimi sizə də oruc tutmaq fərz qılınmışdır ki, bəlkə Allahdan qorxasınız”.

**Oruc və sağlamlıq**

Dinşünas alimlərin sözlərinə görə, orucluq müsəlmanlar üçün əsas ibadətlərdən biri olsa da, heç də hamıya aid deyil. Çünki müqəddəs Qurani-Kərimdə də qeyd olunub ki, tab gətirməyənlər oruc tutmamalıdırlar. Bu ifadə çox ağır fiziki işlə məşğul olanlara, həbsdə işgəncələrə məruz qalanlara, xəstə olanlara və uzaq səfərə çıxanlara, hətta orucu tutmaqda həqiqətən də çətinlik çəkənlərə şamil edilə bilər.

Tibb elmi orucluğu insan sağlamlığının qorunmasında gözəl vasitə sayır. Belə ki, bir ay pəhriz rejiminə əməl edən insanın orqanizmində maddələr mübadiləsi normaya düşür, zərərli maddələr bədəndən xaric olunur. Oruc tutmaqla orqanizmdə qan təmizlənir, bir çox daxili orqanlar dincəlir. Orucluğun digər vacib hikmətlərindən biri də budur ki, imkanlı insanlar oruc tutmaqla, yəni ac qalmaqla bir növ yoxsulların necə yaşadıqlarını hiss etmiş olurlar.

Vücud öyrəşmişdirsə, orta hesabla 60-70 günə qədər aclığa, bir həftə müddətinə susuzluğa dözə bilər. Təzyiq ilk günlərdə xəfif şəkildə aşağı düşür. Bunlar oruca, yəni qismi aclığa olan adaptasiya hallarıdır. Hər yemək vücud üçün bir yorğunluğun başlanğıcıdır. Uca Yaradan, 11 ay fasiləsiz işləyən vücuda ilin bir ayında, yəni Ramazanda müvəqqəti bir istirahət verir. Qaraciyər 24 saat işləməzsə insan ölür. Oruc halında qaraciyərin yükü azalır, vücudda toksid, yəni zəhərli maddələrdən təmizlənmə imkanı artır. Oruclu insanın vücudu maddi olaraq da təmizlənir. Oruc əsnasında qaraciyərin yükü azaldığı üçün ölü və ölməkdə olan hüceyrələrin təmizlənməsi asanlaşır və tezləşir. Allahın əmri olan orucun tutulması ilə, insan vücudu, azalan hüceyrələrin təmizlənməsi və onların yerinə yeni hüceyrələrin gəlməsiylə gəncləşir. “Vücudun zəkatı orucdur” hədisini və zəkatın lüğəvi mənasının təmizlənmə olduğunu xatırlayanda hikmət daha yaxşı aydınlaşır. Oruclu ikən, əsasən günortadan sonra qəlb olduqca rahat vurur, heç bir çətinlik çəkmir. Oruclu insanlarda qəlb bir gündə təxminən 15 000 dəfəyə qədər az vurur. Daha çox istirahət edən qəlb, daha qüvvətli olur.

Bir çox elmi işlər qandakı yağların, xolestirolun səviyyəsinin oruc tutmaqla düşdüyünü göstərmişdir. Orucla qəlb ağrısı (angina) və hiper təzyiqin düşdüyü məruzə edilmişdir. İftarda və imsakda bol miqdarda yağlı və şirin qida qəbul edənlərdə, yağın qandakı səviyyəsinin artması normal nəticədir. İslami orucda qidalanma pozğunluğu olmur və ya orqanizmə heç bir fəsad törətmir. Oruc tutmağın tənəffüs fəaliyyətində hər hansı vacib dəyişikliyə yol açmadığı anlaşılmışdır.

**Ramazan bayramı**

Orucluq id-əl-fitr bayramı ilə başa çatır. Həmin gün bütün varlı və imkanlı müsəlmanlar kasıb müsəlmanlara kömək etməyə borcludurlar. Ramazan bayramı 2 gün qeyd olunur.

Ramazan bayramının məqsədlərindən biri müsəlmanların toplanması və görüşməsidir. Müsəlmanlar bayramda görüşür, bir yerdə namaz qılırlar. Oruc ibadətlərini bitirdikdən sonra müsəlmanlar bayram keçirir və bir yerə yığılırlar. Bayramın başqa məqsədlərindən biri də, müsəlmanların bir-birini ziyarət etməsi, qohum-əqrəbalarla görüşməsi, əgər arada inciklik varsa barışması üçündür.

Azərbaycanda da bu bayramın xüsusi önəmi var. Əvvəlcə bayram namazları qılınır, sonra isə fitrə yığılır. Bu bayramda fitrənin önəmi də çox böyükdür. Fitrələr yığılır və ehtiyacı olan adamlar bundan istifadə edirlər. Bu bayram xalqın milli-mənəvi dəyərlərində, yaddaşlarında yaşayır və nə qədər gözəl qeyd olunsa, o qədər yaxşıdır.

Ötən il, 29 ildən sonra Ramazan bayramı işğaldan azad olunmuş Şuşamızda da qeyd olundu. Bayram münasibətilə Şuşa şəhərinin Yuxarı Gövhər Ağa məscidində bayram namazı qılındı.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan idi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur idilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olundu, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişdi. Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli “Azərbaycan Respublikasının bayramları haqqında” Qanununa əsasən dövlət səviyyəsində qeyd olunmağa başlandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğində və təşviqində mühüm stimul rolu oynayır.

Biz də öz növbəmizdə Ramazan ayı münasibətilə bütün müsəlmanları təbrik edir və oruc tutanlara Allahdan dözüm və səbr diləyirik.

Qarşıdan gələn müqəddəs Ramazan bayramınız mübarək!

**Ağahüseyn TAHİROV,**
**ilahiyyatçı.**




# Narkomaniya ilə mübarizə hər birimizin üzərinə düşən vəzifədir

Müasir dövrdə dünyada narahatlığı doğuran ən acınacaqlı və mürəkkəb bəşəri problemlərdən biri də narkomaniyadır.

Narkomaniya və onun yayılması zəminində inkişaf edən narkobiznes faciəvi nəticələrə səbəb olan bir problem kimi təkcə insanların sağlamlığına və yaşam tərzinə deyil, eləcə də hər bir ölkənin və ümumilikdə dünyanın iqtisadiyyatına, kriminogen durumuna ciddi zərbə vurur. Dünyada milyonlarla (təqribən 250 milyondan artıq) insan bu bəlanın qurbanına çevirilmişdir. Lakin narkomanların hamısının qeydiyyata düşməməsi səbəbindən bu rəqəm tam real gerçəkliyi əks etdirmir.

Qeyd olunan problem ölkəmizdə də mövcuddur, hazırda narkomaniyadan əziyyət çəkən vətəndaşlarımızın sayı minlərlə ölçülür və acınacaqlı hal odur ki, yeniyetmələrimiz və gənclərimiz arasında da narkotik vasitələrə aludəçilik halları artmaqda davam edir. Yeniyetmə və gənclərin “ağ ölüm”dən qorumaq məqsədilə onların elmə, idmana, incəsənətə və digər sahələrə maraq göstərmələrinə çalışılmalı, eyni zamanda müxtəlif vasitələrlə müxtəlif tədbirlərdə narkomaniyanın necə bir bəla olması geniş təbliğ edilməlidir. Narkomaniya ilə mübarizədə ən effektiv vasitələrdən biri də maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir.

Bu asılılığının digər təhlükəli xüsusiyyəti isə onun törətdiyi patoloji vəziyyətin geridönməzliyidir. İnsan orqanizminin uğradığı dəyişikliklərin bir hissəsi əbədi olaraq qalır, aparılmış müalicəvi tədbirlər isə çox vaxt efektsiz olur. Narkotik asılılığın insan psixikasında yaratdığı zehni pozğunluq isə bir çox hallarda ömürlük olaraq dəyişməz qalır.

Araşdırmalar göstərir ki, erkən yaşdan narkotik qəbul edən şəxslərin ömrü 35-40 il arası təşkil edir. Ciddi asılılıq vəziyyətinə düşmüş insanlar tədricən narkotik vasitələrin inyeksiya vasitəsi ilə orqanizmə yeridilməsinə üstünlük verərək, bu zaman istifadə etdikləri şprislərin steril vəziyyətdə olub-olmamasının fərqinə varmırlar, bu isə nəticədə narkomanlar arasında QİÇS və sair ağır və yolxucu xəstəliklərin geniş yayılmasına yol açır.

Birləşmiş Millətlər Təşkilatı tərəfindən narkomaniya ilə bağlı problemləri dünya ictimaiyyətinin diqqətində saxlamaq məqsədilə iyun ayının 26-sı “Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü” elan edilmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsindən hər il milyardlarla əldə edilən qanunsuz gəlirlər yeni müharibə və münaqişə ocaqlarının, ayrı-ayrı terrorçu mərkəzlərin, mütəşəkkil cinayətkar qrupların yaradılmasına, silah alverinin daha da gücləndirilməsinə və digər cinayətkar aksiyalara sərf olunur.

Vaxtilə işğala məruz qalmış torpaqlarımızda, Dağlıq Qarabağ və ətraf ərazilərdə düşmənin xeyli sayda narkotik bitki plantasiyaları və laboratoriyaları fəaliyyət göstərmişdir. Düşmən silahlı münaqişə nəticəsində nəzarətsiz qalmış Azərbaycan ərazilərindən narkotiklərin becərilməsi, satılması və tranziti, eyni zamanda, transmilli cinayətlərin həyata keçirilməsi üçün nəzarətsiz zona kimi istifadə etmiş, hər il dünya bazarlarına on tonlarla narkotik maddələr çıxarmışdır.

Hazırda narkomaniya və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə dövlətimizin qarşısında duran ən vacib məsələlərdən biri olmaqla bu sahədə məqsədyönlü, ardıcıl və təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir. Bu məqsədlə ölkəmizdə zəruri normativ-hüquqi baza, müvafiq təşkilati strukturlar yaradılmış, milli proqramlar hazırlanaraq həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə qətiyyətli mövqe nümayiş etdirərək, bu problemlə əlaqədar 2000-2006-cı, 2007-2012-ci və 2013-2018-ci illəri əhatə edən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair üç mühüm əhəmiyyət kəsb edən Dövlət Proqramı təsdiq etmişdir. Hazırda isə Prezident İlham Əliyevin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş 2019-2024-cü illəri əhatə edən dördüncü növbəti 5 illik Dövlət Proqramının icrası davam etdirilir. Bu ölkəmizdə narkomaniyaya qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsinin göstəricisidir. Azərbaycan dövlətinin bu problemlə bağlı müəyyənləşdirdiyi strategiya uğurla reallaşdırılır, ölkəmizdə bu sosial bəlanın bütün təzahürlərinə qarşı prinsipial və barışmaz mövqe nümayiş etdirilməklə gənc nəslin sağlam və yüksək ideallar ruhunda tərbiyəsi istiqamətində qətiyyətli addımlar atılır.

Cinayət qanunvericiliyində təsvir olunan problemlə mübarizə istiqamətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-241-ci maddələri məhz narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə aid edilmişdir.

Həmin maddələrdə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma, narkotik vasitələri və ya psixotrop maddələri və ya onların prekursorlarını talama, hədə-qorxu ilə tələb etmə, həmin maddələrin istehlakına təhrik etmə, narkotik maddələr olan bitkiləri kultltivasiya etmə, bu kimi maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama, habelə narkotik vasitələri və ya psixotrop maddələri əldə etmək üçün hüquq verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz verme və ya saxtalaşdırma cinayətlərinə görə müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzaları nəzərdə tutulmuşdur.

Yeniyetmə və gənclərimizin antinarkomaniya ruhunda tərbiyə olunması məsuliyyətinin mühüm bir hissəsi bütövlükdə cəmiyyətin, ordunun, hər bir vətəndaşın, ictimai qurum və təşkilatların, kütləvi informasiya vasitələrinin, həmçinin də mədəni-maarif müəssisələrinin üzərinə düşür. Vətəndaş olaraq hər birimiz tərəfindən dövlətimizin gələcəyi olan gənc nəslin vətənpərvər, fiziki və mənəvi cəhətdən sağlam və hərtərəfli inkişaf etdirilməsi sahəsində əlindən gələn edilməli, bütün üsul və vasitələrlə yeniyetmə və gənclərə daim mənəvi saf, fiziki sağlam həyat tərzi təbliğ edilməlidir.

**Nazim BABAYEV,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**